**Bankkart taksitli kredit kartına dair Standart Şərtlər**

**( “03” Oktyabr 2023-cü il )**

| **Anlayışlar, şərtlər, tərəflərin hüquqları, öhdəlikləri və məsuliyyəti** | **Açıqlama** |
|---|---|
| Xüsusi Şərtlər | 1. Faktiki illik faiz dərəcəsinin hesablanmasına aşağıdakı ödənişlər daxildir:<br>a) Kartın qiyməti;<br>b) nağdlaşdırıldığı halda nağdlaşdırma komissiyası (Ziraat Bank ATM və kassalarından);<br>c) nağdlaşdırıldığı halda annuitet şəklində müəyyən edilən aylıq ödənişlər.<br>2. Kredit xətti üzrə ödənişlər aşağıdakı üsullarla həyata keçirilə bilər:<br>● bank hesabından köçürməklə;<br>● ödəniş terminalları ilə;<br>● nağd qaydada banka ödənilməklə;<br>● sair.<br>Qeyd edilən üsullardan hər hansı birinin istifadəsinin mümkün olmaması Borcalanı digər mümkün üsullardan istifadə etməklə ödənişləri vaxtında həyata keçirmək öhdəliyindən azad etmir.<br>3. Borcalan və onun xeyrinə üçüncü şəxs tərəfindən ödənilən pul vəsaiti yetərli miqdarda olmazsa, silinmə ardıcıllığı aşağıdakı qaydada həyata keçirilir:<br>1. Dəymiş zərər və Bankın xərcləri (əgər varsa);<br>2. Gecikdirilmə faizləri;<br>3. Əsas məbləğin gecikmədə olan hissəsi;<br>4. Faizlər.<br>4. Borcalan və onun xeyrinə üçüncü şəxs tərəfindən ödənilən pul vəsaiti ödəniş qrafikində nəzərdə tutulmuş məbləğdən artıq olarsa, silinmə ardıcıllığı aşağıdakı qaydada həyata keçirilir:<br>1. Faizlər;<br>2. Əsas məbləğ.<br>5. Kredit vaxtından əvvəl tam və ya qismən geri qaytarıldıqda, kreditin qalıq müddətinə görə hesablanmış faizlər və (və ya) digər haqlar vaxtından əvvəl ödənilmiş məbləğə uyğun olaraq azaldılır. Kreditin qismən vaxtından əvvəl ödənilməsi halında, Bankla razılaşma əsasında və ödəniş cədvəlində müvafiq dəyişiklik edilməklə dövri ödənişlərin məbləği azaldılır.<br>6. Kredit üzrə faizlərin tutulmadığı müddət barədə məlumat bu Standart Şərtlərdə müəyyən edilir.<br>7. Ödənişlər gecikdirildiyi halda gecikdirmə faizləri və ya dəbbə pulu tətbiq edilə, təminata tutma yönəldilə, kreditin vaxtından əvvəl qaytarılması tələb edilə, habelə qanunda və Müştəri ilə bağlanmış Bankkart taksitli kredit kartı Müqaviləsi və bu Standart Şərtlərdə müəyyən edilmiş digər tədbirlər görülə bilər. |

| | |
|---|---|
| | 8. Borcalan öhdəliyini istənilən vaxt tamamilə və ya qismən vaxtından əvvəl icra edə bilər.<br>9. Müştəri kredit məbləğinin verildiyi gündən heç bir səbəb göstərmədən 30 gün müddətində bu Müqavilədən imtina edə bilər. Müştəri bu hüquqdan istifadə etdikdə, kredit məbləğinin verildiyi gündən kredit məbləğinin qaytarıldığı günədək hesablanan faizləri, dövlət rüsumunu və xidmət haqlarını ödəyir.<br>10. Borcalan Bankkart taksitli kredit kartı Müqaviləsinin müddəti ərzində sorğu əsasında ildə iki dəfə ödənişsiz olaraq kağız daşıyıcıda (digər davamlı daşıyıcıda isə istənilən zaman) kreditin qalıq məbləği barədə hesabdan çıxarışı kreditin ödəniş qrafiki şəklində (ödəniş qrafikində həyata keçirilməli olan ödənişlər, belə ödənişlərin müddətləri, ödənişlərin strukturu, o cümlədən illik faiz dərəcəsi üzrə hesablanmış faizlər və tətbiq olunan digər əlavə xərclər göstərilməklə) təqdim edilməsini tələb edə bilər. |
| Hesab kəsim tarixi | Hər ayın sonuncu iş günü.<br>Bank tərəfindən hesab kəsim tarixində Müştərinin ödəməli olduğu minimum borc müəyyən edilir və ödəniş tarixinin sonuna qədər bu borcun ödənilməsi üçün vaxt verilir. Müştəri ödəniş tarixinin sonuna qədər borcu ödəməsə, həmin borc gecikməyə çıxır. |
| Ödəniş tarixi | Hesab kəsim tarixindən sonrakı Ayın 1-10-u aralığı.<br>Ayın 10-u son ödəniş tarixidir. |
| Nağdlaşdırma əməliyyatları | ATM-dən, POS-terminaldan və s. vəsaitin nağdlaşdırması əməliyyatlarına əlavə olaraq, Kartdan Karta pul köçürmə (Card to card), kredit (bank və bank olmayan kredit təşkilatları üzrə) ödənişləri də nağdlaşdırma əməliyyatlarına bərabər tutulur. |
| Nağdsız əməliyyat | Nağdlaşdırma əməliyyatlardan başqa digər bütün əməliyyatlar (POS-terminal və e-commerce (elektron ticarət) ödənişləri) |
| Qrafikə bölünməyən nağd əməliyyat | 20 (iyirmi) AZN limiti məbləğində və ondan aşağı məbləğdə nağdlaşdırma əməliyyatı aparıldıqda, bu məbləğ qrafikə bölünmür və əməliyyat baş verdiyi tarixdən növbəti ödəniş tarixinin sonunadək həmin borc ödənilənə qədər illik faiz gündəlik olaraq hesablanacaq.<br>20 (iyirmi) AZN-dən yuxarı aparılan nağdlaşdırma əməliyyatının məbləği dərhal 12 aylıq qrafikə bölünür və illik faiz tətbiq edilir. Qrafikə bölünmüş məbləğin ilk aylıq ödənişi növbəti ödəniş tarixində ödənilməlidir. |
| Qrafikə bölünməyən nağdsız əməliyyat | 10 (on) AZN limiti məbləğində və ondan aşağı məbləğdə nağdsız əməliyyat aparıldıqda, bu məbləğ qrafikə bölünmür və əməliyyat baş verdiyi tarixdən növbəti ödəniş tarixinin sonunadək həmin borcun faizsiz olaraq ödənilməsi üçün vaxt verilir. Bu əməliyyat üzrə borc növbəti ödəniş tarixində ödənilməlidir.<br>10 (on) AZN–dən yuxarı aparılan nağdsız əməliyyatının məbləği illik faiz tətbiq edilərək 12 aylıq qrafikə bölünür və əməliyyat aparıldığı ayın sonunadək faizsiz ödənilməsi üçün vaxt verilir. Bu borc növbəti ödəniş tarixinədək ödənilmədikdə, qrafikə bölünmüş məbləğin ilk aylıq ödənişi bir sonrakı ödəniş tarixində ödənilməlidir. |

| | |
|---|---|
| Texniki overdraft | Müxtəlif səbəblərdən kartda ayrılmış kredit xətti məbləğindən artıq vəsait xərcləndikdə, həmin vəsait overdrafta çıxır. Overdrafta çıxan məbləğ növbəti ödəniş tarixində ödənilməlidir. |
| Kartın avtomatik bloklaşdırılması | Ödənilməli olan borc, son ödəniş tarixinə qədər ödənilmədikə gecikməyə çıxır. Borc gecikməyə çıxdıqdan 10 gün sonra gecikmə davam etdiyi təqdirdə kart avtomatik olaraq bloklanır. Gecikmədə olan borc ödənildikdə, kart blokdan avtomatik olaraq çıxarılır. |
| Bank tərəfindən kartın bloklaşdırılması, bağlanması, kredit xətti üzrə ümumi borcun qaytarılmasının tələb olunması | Kartın qanunsuz istifadəsi, qanunvericiliyə zidd əməliyyatların aparılması halları aşkar edildikdə, habelə bu cür hallarla bağlı əsaslı şübhələr yarandıqda, bundan əlavə, Bankı aldatmağa yönəlmiş hər hansı bir hərəkətin edildiyi və ya yanlış məlumatın və sənədlərin təqdim edilməsi aşkar olunduqda, habelə qanunvericiliklə nəzərdə tutulmuş digər hallarda kart Bank tərəfindən dərhal bloklana, tamamilə bağlana (ləğv edilə) və kredit xətti üzrə ümumi borcun qaytarılması tələb edilə bilər. |
| Akseptsiz qaydada hesablardan vəsaitin silinməsi | Müştərinin kart üzrə gecikmədə olan borcu olduğu təqdirdə, bank tərəfindən onun bütün hesablarından gecikmədə olan borcu qədər vəsait, həmin borcun bağlanması məqsədi ilə akseptsiz qaydada silinir. |
| Kartın yenisi ilə əvəz edilməsi | Kartın itirilməsi, yarasız hala düşməsi və digər hallarda Müştərinin yazılı və ya identifikasiya edilmiş məsafədən müraciəti əsasında, ona mövcud kart tarifləri nəzərə alınmaqla yeni kart verilir. |
| Kredit limitinin artırılması | Müştərinin yazılı və ya identifikasiya edilmiş məsafədən müraciəti Bank tərəfindən təhlil ediləcək, qaydalara uyğun olduqda artırılacaq. |
| Kartla əməliyyat zamanı təhlükəsizlik qaydaları | Təhlükəsizlik qaydaları ilə “Ziraat Bank Azərbaycan” ASC-nin saytında (https://ziraatbank.az/az/security ) **"Kart və ATM istifadəçiləri üçün təhlükəsizlik"** bölməsində tanış ola bilərsiniz. |
| Əlavə Kart | Müştərinin ərizəsinə əsasən istənilən üçüncü şəxsin xeyrinə Bank tərəfindən əlavə kartlar buraxıla bilər. Müştəri kart hesabının aparılması və kartdan istifadə üçün müstəsna hüquqlarını özündə saxlayır. |
| Kartın PİN kodu (şəxsi eyniləşdirmə nömrəsi) | Bank tərəfindən Müştəriyə kartla birlikdə PİN kod da təqdim edilir və Müştəri kartdan və PİN-koddan istifadə qaydaları ilə tanış edilir. Müştəri Bankın xidmət bölmələrində pos-terminal avadanlığı vasitəsilə kartı üzrə yeni PİN-kod təyin edə bilər. PİN-kodun dəyişdirilməsi Bankın bankomatlarında (ATM-də) tətbiq edilən PİN-kod dəyişmə xidməti vasitəsilə həyata keçirilir. |
| Bankın hüquqları | 1. Bank Müştəriyə tətbiq edilən tariflərə birtərəfli qaydada dəyişikliklər edə bilər.<br>2. Kartın itirilməsi, oğurlanması və ya səlahiyyətli olmayan şəxs tərəfindən qanunsuz istifadəsi haqqında Müştərinin Banka müvafiq bildirişi daxil olduqda, Bank kartı bloklaşdırır və ya karta xidmət göstərilməsini dayandıraraq kartın nömrəsini yerli və beynəlxalq “Stop” vərəqəsinə (lokal, elektron, kağız) yerləşdirir. |
| Bankın öhdəlikləri | 1. Müştərinin müraciətinə əsasən Bank Müştərinin kart hesabı üzrə çıxarış və arayış verməlidir (şəxsən, poçt, elektron poçt və digər vasitələrlə) (bu Standart Şərtlərin Xüsusi Şərtlərinin 10-cu bəndində göstərilən hal ayrıca nəzərə alınmaqla). Çıxarış və arayışın |

| | |
|---|---|
| | verilməsindən sonrakı 15 (on beş) iş günü ərzində çıxarış və arayış üzrə Banka pretenziya daxil olmadıqda, göstərilən məlumatların düzgünlüyünün təsdiqi hesab edilir.<br>2. Kart bloklaşdırıldıqda, karta xidmət göstərilməsi dayandırıldıqda və ya kartın istifadə müddəti başa çatdıqda, Müştərinin yazılı tapşırığı ilə onun kart hesabındakı pul vəsaitinin qalığı (kart hesabında aparılmış əməliyyatlar üzrə hesablaşması başa çatdırılmamış (blok olunmuş) vəsaitlər xaric) nağd şəkildə Müştəriyə verilməli və ya Müştərinin digər hesabına köçürülməlidir. |
| Müştərinin hüquqları | 1. Kartın istifadə müddəti bitdikdə, kart itirildikdə və ya oğurlandıqda, Müştəri onun təzəsi (yenisi) ilə əvəz olunması barədə Bankın www.ziraatbank.az internet səhifəsi üzərindən və yaxud yazılı ərizə ilə Banka müraciət edə bilər. Müştəri təzə kartın verilməsi ilə bağlı bütün xərcləri ödəməlidir. Kartın PİN-kodu itirilibsə, kartın yenisi ilə əvəz edilməsi zəruriyyəti yaranmır və bu halda Müştəri Bankın xidmət bölmələrində pos-terminal avadanlığı vasitəsilə, yaxud Bankın www.ziraatbank.az internet səhifəsi üzərindən kartı üzrə yeni PİN-kod təyin edə bilər.<br>2. Müştəri kartın istifadəsi ilə yerinə yetirilən əməliyyatlar və aparılan hesablaşmalar üzrə Banka müraciətlər etmək və şikayətlər göndərmək hüququna malikdir.<br>3. Pul məbləğinin Müştərinin kart hesabından əsassız və səhvən silindiyi barədə əsaslı şübhələr olduqda, Müştəri yazılı müraciət əsasında həmin məbləğin əvəzinin ödənilməsi üçün təhqiqat aparılmasını tələb edə bilər. Təhqiqat prosesi beynəlxalq kart təşkilatlarının qaydalarına əsasən aparılır. Pul məbləğinin səhvən silinməsi sübut olunmadıqda, Bank təhqiqat vaxtı məruz qaldığı bütün xərcləri və komisyon (xidmət) məbləğlərini Müştəridən tuta bilər. |
| Müştərinin öhdəlikləri | 1. Müştəri kartı itirdikdə, kart oğurlandıqda və ya səlahiyyətli olmayan şəxs tərəfindən qanunsuz istifadə edildikdə, Müştəri dərhal bu fakt barədə mümkün kommunikasiya vasitələrindən (ən azı telefon, mobil, internet) istifadə etməklə Bankı məlumatlandırmalıdır. Müştəri aşağıda göstərilən telefon və internet saytı vasitəsilə ilə “Azərikard” MMC ilə əlaqə saxlaya bilər: əlaqə tel (customer support service): (994 12) 194; internet sayt: www.azericard.com. Bank kartın itirilməsi, oğurlanması və ya səlahiyyətli olmayan şəxs tərəfindən qanunsuz istifadə edilməsi üçün məsuliyyət daşımır və bu bənddə göstərilən məlumatlandırma ilə bağlı xəbərdarlıq “Azərikard” MMC tələbləri üzrə müəyyən edilən müddətdə qüvvəyə minir.<br>2. Kart bloklaşdırılıqda və ya bağlandıqda, Müştəri tərəfindən kart üzrə borc Standart Şərtlərdə müəyyən edilmiş qaydada geri qaytarılmalıdır. |

| | |
|---|---|
| Tərəflərin məsuliyyəti | 1. Təhlükəsizlik tələblərinin və digər şərtlərin pozulmasına görə tərəflər qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.<br>2. Beynəlxalq kart təşkilatları tərəfindən qəbul edilmiş "məsuliyyətin ötürülməsi qaydası"nın (liability shift rule) tətbiq olunmadığı ölkələrdə əməliyyatların aparılmasına dair şərtlər: Çip kart üzrə öhdəliyin (məsuliyyətin) ötürülməsi o deməkdir ki, EMV (Europay, MasterCard və Visa) çip kart platformasına keçən ölkədə və/və ya regionda saxta və/və ya fırıldaqçılıq əməliyyatı baş verdiyi halda əməliyyat üzrə öhdəlik (məsuliyyət) qeyri-çip kart istiqamətli tərəfə (şikayətçi tərəfə) ötürüləcəkdir (keçəcəkdir). Əlavə olaraq, əgər PIN beynəlxalq kart təşkilatları tətbiq edilən regionda və ya ölkədə üstünlük verilən və ya tələb edilən CVM-dirsə (card verification method – kartın müştəriyə aid olub-olmamasını yoxlama vasitələri), hər hansı bir müştəri (müştəri/kart/əlavə kart sahibi) Çip/PIN əməliyyatlarını dəstəkləmək qabiliyyətinə malik olmadıqda, beynəlxalq kart təşkilatları əməliyyatlarında saxtakarlıqla nəticələnən itirilmiş, oğurlanmış və ya heç vaxt qəbul edilməmiş kartlar üçün həmin müştəri (müştəri/kart/əlavə kart sahibi) məsuliyyət daşıyacaqdır. |

| Tətbiq edilən faiz və komissiyalar | | | |
|---|---|---|---|
| Şərtlər | Kartın növləri | | Qeyd |
| | Sadə kartlar (Visa rewards, Mastercard World) | Platinum kart (Visa Platinum, Mastercard Platinum) | |
| **Kartın qiyməti** | 1 illik: 15 AZN,<br>3 illik: 25 AZN,<br>5 illik: 35 AZN. | 1 illik: 30 AZN,<br>3 illik: 50 AZN,<br>5 illik: 70 AZN. | |
| **Kartın valyutası** | AZN | AZN | |
| **Nağdlaşdırma** | | | |
| Ayrılmış kredit məbləğindən nağdlaşdırma limiti | 30% | 60% | |
| Nağdlaşdırma komissiyası (Ziraat Bank ATM və kassalarından) | 1.5 % (min. 1 AZN) | 1 % (min. 1 AZN) | Bu komissiyalar kartın kredit tərəfinə şamil edilir. Kartın debit tərəfinə tətbiq edilən nağdlaşdırma komissiyaları |

| | | | |
|---|---|---|---|
| Nağdlaşdırma komissiyası (Digər ölkədaxili bankların ATM və kassalarından) | 2% (min. 3 AZN) | 2% (min. 3 AZN) | Bankın debit kartları ilə əlaqədar qüvvədə olan tarifi ilə tənzimlənir. |
| Nağdlaşdırma komissiyası (Xarici bankların ATM və kassalarından) | 2% (min. 5 AZN) | 2% (min. 5 AZN) | |
| Ziraat Bank Türkiyə ATM-lərindən | 1.5 % (min. 1 AZN) | 1 % (min. 1 AZN) | |
| **Digər məlumatlar** | | | |
| Qrafikə bölünməyən nağd əməliyyat limiti | 20 AZN | 20 AZN | |
| Qrafikə bölünməyən nağdsız əməliyyat limiti | 10 AZN | 10 AZN | |
| Qrafikə bölünmə (bütün müvafiq əməliyyatlar üzrə) | 12 ay | 12 ay | |
| Digər kart tarifləri | Bankın qüvvədə olan kart tariflərinə əsasən (https://ziraatbank.az/az/mehsul-xidmet-tarifleri) | | Xarici valyutada aparılan əməliyyatlar üzrə tətbiq edilən, habelə Standart Şərtlərdə göstərilməyən bütün komissiyalar bankın qüvvədə olan kart tarifi ilə tənzimlənir. |
| Digər şərtlər | Müştəri şikayət, ərizə və təklifləri ilə Bankın baş ofisinə, yaxud xidmət göstərən struktur bölmələrinə yaxınlaşa, Bankın www.ziraatbank.az internet səhifəsində İstehlakçı Müraciətləri bölməsinə daxil olmaqla, həmçinin aşağıdakı vasitələrdən istifadə etməklə Bankın aidiyyəti struktur bölməsinə müraciət edə bilər:<br><br>info@ziraatbank.az elektron poçt ünvanı, yaxud (012) 505 56 16 və ya *9229 telefon nömrəsi.<br><br>Maliyyə xidmətləri istehlakçıları həmin xidmətləri istehlak edərkən qarşılaşdığı çətinliklər və suallarla əlaqədar Azərbaycan Respublikasının Mərkəzi Bankının +994124935058 telefon nömrəsinə və +99412966 qaynar xəttinə müraciət edə bilərlər. Mərkəzi Bankın ünvan: Bakı şəhəri, R.Behbudov küçəsi, 90 | | |

Qeyd. Bank, Standart Şərtlərə əlavə və dəyişikliklər etmək hüququna malikdir.